

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 17 (21.427)

28 yanvar 2016-cı il,cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Almaniya Federal Statistika İdarəsinin prezidenti Diter Sarrayteri və Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarskini qəbul edib.

Dövlətimizin başçısı "Milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılmasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə dəstək" Tvinninq layihəsinin ikinci fazasının təqdimatı ilə bağlı keçirilən konfransın əhəmiyyətini qeyd edib. Bütün sahələrdə işlərin planlaşdırılmasında, iqtisadi inkişafa nail olunmasında dəqiq statistikanın rolunu xüsusi vurğulayan Prezident İlham Əliyev ölkəmizin statistika sistemində islahatların aparılmasının önəmindən danışaraq bu baxımdan Tvinninq layihəsinin uğurla həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarski layihənin birinci fazasının icrası zamanı ölkəmizdə Tvinninq üzrə rezident-müşavir vəzifəsində çalışdığı müddətdə görülən işlərdən danışıb.

Almaniya Federal Statistika İdarəsinin prezidenti Diter Sarrayter səmərəli siyasətin işlənib hazırlanmasında düzgün statistik məlumatların əldə edilməsi və istifadə olunmasının vacibliyinə toxunub, bu sahənin təkmilləşdirilməsinin əhəmiyyətini vurğulayıb.



## Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin konfransı keçirilmişdir



***Yanvarın 27-də Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin konfransı keçirilmişdir.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfransın gündəliyində duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransda Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin hesabatının dinlənilməsi, təşkilatın yeni İdarə Heyəti üzvlərinin və qurumun sədrinin seçilməsi, Nəzarət-Təftiş Komissiyasının say tərkibinin müəyyənləşdirilməsi və komissiya üzvlərinin seçilməsi məsələləri müzakirəyə çıxarılacaqdır.

Konfransın gündəliyi yekdilliklə qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin sədri İxtiyar Seyidov birliyin 5 illik fəaliyyəti barədə danışaraq qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikasında mədəniyyətin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Muxtar respublika mədəniyyəti bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra muxtar respublikada Aşıqlar Birliyi yaradılmışdır. Həmin tarixdən etibarən aşıq sənətində yeni inkişaf mərhələsi başlanmışdır. Aşıq sənətinin inkişafına göstərilən qayğı Naxçıvan aşıqlarının yaradıcılıq imkanlarını daha da genişləndirmişdir. Aşıqlar yaradılan şəraitdən istifadə edərək bu sənətin tarixi sənətkarlıq xüsusiyyətlərini dərindən öyrənərək yaradıcılıqlarını davam etdirirlər.

Bildirilmişdir ki, aşıq sənətinə dövlət səviyyəsində göstərilən diqqət və qayğı sayəsində 2009-cu ilin dekabrında yaranan Aşıqlar Birliyi gənc və istedadlı aşıqları bir araya gətirmiş və 2010-cu ilin avqust ayında Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində ilk konsertini keçirmişdir.

Daha sonra Aşıqlar Birliyinin İdarə Heyətinin yeni tərkibi seçilmişdir.

Aşıqlar Birliyinin üzvü Zeynəb Yusifova çıxış edərək demişdir ki, bu gün mədəniyyət sahəsinə, o cümlədən aşıq sənətinə göstərilən dövlət qayğısı birliyin fəaliyyətində ciddi dönüş yaradılmasını və qarşıda duran vəzifələrin günün tələbləri səviyyəsində həyata keçirilməsini zəruri edir. Zeynəb Yusifova birliyin qarşısına qoyulan vəzifələri lazımi səviyyədə icra edə biləcəyini, bu sahədə istedad və təşkilatçılıq qabiliyyətinin yüksək olduğunu əsaslandıraraq Aşıqlar Birliyinin sədri vəzifəsinə Tural Bağırovun namizədliyini irəli sürmüşdür.

Birliyin digər üzvü Fətəli Axundzadə də Tural Bağırov barədə səsləndirilən fikirlərə qoşulduğunu qeyd etmişdir.

Təklif səsə qoyulmuş və yekdilliklə dəstəklənmişdir.

Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin yeni sədri Tural Bağırov ona göstərilən etimada görə birliyin üzvlərinə minnətdarlığını bildirmiş, etimadı doğrultmaq üçün səylə çalışacağını qeyd etmişdir. Vurğulamışdır ki, birliyin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün lazımi şərait yaradılmışdır. O bildirmişdir ki, muxtar respublikada aşıq sənətinin və istedadlı aşıqlarımızın tanıdılması, aşıq musiqisinin təbliği ilə bağlı fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışacaqdır.

Birliyin Nəzarət-Təftiş Komissiyasının say tərkibi müəyyənləşdirildikdən və komissiya üzvləri seçildikdən sonra konfransın qərar layihəsi oxunmuş və yekdilliklə qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfransda çıxış edərək Aşıqlar Birliyinin ötən müddət ərzində fəaliyyətində olan nöqsanlardan danışmışdır. Qeyd etmişdir ki, birlik gələcəkdə buraxılan nöqsanları aradan qaldırmalı, muxtar respublikada musiqi mədəniyyətinin inkişafı və təbliği istiqamətində fəaliyyətini gücləndirməli, mədəni irsin qorunub saxlanmasında yaxından iştirak etməlidir. Birliyin illik iş planı hazırlanmalı və icrasına nail olunmalıdır. Birliyin üzvlərinin tərkibinə yenidən baxılmalı, gənc aşıqların üzvlüyə qəbulu diqqətdə saxlanılmalıdır.

Rəhman Məmmədov diqqətə çatdırmışdır ki, Aşıqlar Birliyi gənc istedadları aşkara çıxarmaq üçün müxtəlif səpkili müsabiqələr, tədbirlər keçirməli, onların yaradıcılıq qabiliyyətlərinin inkişafına çalışmalı, musiqi təhsili müəssisələrində ustad dərsləri təşkil etməlidir. Bu mənada, Naxçıvan Musiqi Kollecinin Aşıq sənəti ixtisasının Aşıqlar Birliyinin hamiliyinə verilməsi buna geniş imkanlar açır. Bununla yanaşı, Yazıçılar Birliyi və Bəstəkarlar Təşkilatı ilə birgə layihələr hazırlanmalı və həyata keçirilməlidir. Naxçıvan şəhəri ilə yanaşı, rayonlarda, eləcə də kənd mərkəzlərində yaradıcılıq görüşləri, saz-söz məclisləri təşkil edilməlidir. Aşıqlar Birliyi Naxçıvan Dövlət Televiziyası ilə də əlaqələri gücləndirməli, üzvlərin iştirakı ilə aşıq yaradıcılığı ilə bağlı verilişlər təşkil olunmalıdır.

✍ **Rauf ƏLİYEV**

## Həkim məsləhət və tibbi-sosial ekspert komissiyalarının fəaliyyəti müzakirə edilib

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tibbi-sosial ekspert komissiyası ilə birgə iclas keçirilib.***

İclasda tibb müəssisələrindəki həkim məsləhət komissiyaları tərəfindən tibbi-sosial ekspert komissiyalarına göndərişlərin vəziyyətinin daha da yaxşılaşdırılması ilə əlaqədar məsələ müzakirə edilib. Birgə iclasda çıxış edən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov bildirib ki, vətəndaşların əmək qabiliyyətinin itirilməsi hallarının həkim məsləhət komissiyaları tərəfindən ekspertizasının, tibbi-sosial ekspert komissiyası tərəfindən isə əlillik dərəcəsinin təyini işinin təkmilləşdirilməsi istiqamətində son illər ardıcıl tədbirlər həyata keçirilir. Hər iki nazirliyin birgə kollegiya və cari iclaslarında tibbi-sosial ekspert komissiyalarına göndərişlərdə və vətəndaşlara əlillik dərəcəsinin təyinində yol verilən nöqsanlar geniş təhlil olunur, onların aradan qaldırılması barədə konkret tapşırıqlar verilir.

Tədbirdə pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatının formalaşdırılması ölkədə həyata keçirilən uğurlu sosial siyasətin bəhrəsi kimi dəyərləndirilib. Bildirilib ki, hazırda əlilliyin təyin olunması meyarları müvafiq hüquqi baza ilə müəyyənləşdirilir və əlillik vətəndaşın xəstəliyinin ağırlıq dərəcəsindən asılı olaraq təyin edilir. Xəstə müvafiq səhiyyə müəssisələrinin həkim məsləhət komissiyasına müraciət edir və həmin komissiya tərəfindən xəstəyə "Forma 88" adlanan göndəriş verildiyi halda, o, ərazi tibbi-sosial ekspert komissiyasına göndərilir. Burada ətraflı müayinə olunur və ona vəziyyətə uyğun olaraq əlillik dərəcəsi (I, II, III) müəyyən edilməklə əmək zəmanəti verilir. Əmək zəmanəti verilərkən isə vətəndaşın əmək qabiliyyətli olub-olmamasına dair məlumatlar (işi, ixtisası, peşəsi) nəzərə alınır. Əlilliyin qarşısının alınması və əlillərin reabilitasiyası sahəsində aparılan məqsədyönlü tədbirlər nəticəsində tibbi-sosial ekspert komissiyasına göndərişlərin sayı ilbəil azalır. Məsələn, 2014-cü ildə səhiyyə müəssisələri tərəfindən əlillik qrupu almaq üçün ilkin göndərişlərin sayı əvvəlki illə müqayisədə 100 nəfər, 2015-ci ildə isə əvvəlki illə müqayisədə 70 nəfər azalıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev ötən il rayonlar üzrə tibbi-sosial ekspert komissiyasına göndərilən müraciətlər, əlillik qrupu təyin edilən, əlavə müalicəyə qaytarılan, əlillikdən imtina olunan xəstələr haqqında məlumat verib.

Tədbirdə həkim məsləhət komissiyaları tərəfindən tibbi-sosial ekspert komissiyasına göndərişlərin təlimata uyğun həyata keçirilməsi, əsaslandırılmamış göndərişlərin yazılmasına yol verilməməsi, imtiyazlı əlillərin nəqliyyat vasitələri ilə təmin olunmasında tam şəffaflığın yaradılması barədə baş həkimlərə tapşırıqlar verilib. İki nazirliyin birgə əməkdaşlığının muxtar respublikada əlilliyin təyin olunması vəziyyətinin daha da yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Əmək pensiyalarının sığorta hissəsi artırılmışdır

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan aldığımız məlumata görə, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə uyğun olaraq, "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 yanvar 2016-cı il tarixli Sərəncamına əsasən, əmək pensiyalarının sığorta hissəsinin məbləği 2015-ci il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq 2016-cı ilin 1 yanvar tarixinə 4 faiz artırılmışdır.***

Muxtar respublika üzrə əmək pensiyaçılarının pensiyalarının yenidən hesablanması məqsədilə fondun şəhər və rayon şöbələrinə müvafiq tapşırıqlar verilib. Əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsinin məbləğinin 4 faiz artırılması prosesinə artıq başlanılıb. Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi, pensiyanın ümumi məbləğindən baza hissəsi çıxılaraq pensiyanın sığorta hissəsinə 4 faiz (2015-ci il üzrə istehlak qiymətləri indeksi) əlavə edilməklə aparılır. Fond tərəfindən bütün növ əmək pensiyaları üzrə 48 min 56 nəfər əmək pensiyaçısının pensiyasının sığorta hissəsinə 4 faiz artım tətbiq ediləcəkdir. Bu da hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və dövlət qulluqçusu kateqoriyasına aid olan əmək pensiyaçıları istisna olmaqla, muxtar respublika üzrə ümumi pensiyaçıların 93 faizini təşkil edir.

Əmək pensiyalarının sığorta hissəsində müvafiq artımların aparılması ilə yanaşı, fərdi uçot sistemində sığortaolunanların fərdi hesablarında toplanmış pensiya kapitalı məbləğlərinin də 4 faiz indeksləşdirilməsi aparılır.

Məlumatda o da bildirilir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən bütün növ əmək pensiyaları üzrə hesablanmış artımlar Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq 2016-cı ilin fevral ayının pensiya ödənişində yanvar ayının artımları da daxil olmaqla, əmək pensiyaçılarının plastik bankomat kartlarına köçürüləcəkdir.

**Xəbərlər şöbəsi**

# İqtisadiyyat



## Ötən il muxtar respublikamızın bank sektoru üçün uğurlu olub

***Dövrümüzdə hər bir vətəndaş bazarın sabitliyinə yönələn tənzimləyici addımın məhz bank sistemindən keçdiyini yaxşı bilir və buna görə də cəmiyyət bu mühüm qurumdan adekvat addımlar gözləyir. Muxtar respublikamızın iqtisadi inkişafında burada fəaliyyət göstərən bankların rolu nədən ibarətdir? Ötən dövr Naxçıvan Muxtar Respublikasında özəl sektora maliyyə dəstəyinin göstərilməsində, yeni layihələrin həyata keçirilməsində, əhali əmanətlərinin banklara cəlb olunmasında və elektron bankçılıq sahəsində hansı irəliləyişlərlə yadda qalmışdır? Ümumiyyətlə, Naxçıvanda sadə vətəndaşlar və sahibkarlar bank xidmətləri ilə necə əhatə olunmuşlar və bu xidmətlərdən istifadə səviyyəsini genişləndirmək üçün hansı maarifləndirici tədbirlər aparılır? Oxucularımızı maraqlandıran bu suallara Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov cavablandırır.***

***– Səbuhi müəllim, ilk olaraq ötən 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bankların fəaliyyətini necə ümumiləşdirə bilərsiniz?***

– Şübhəsiz, yaşadığımız bazar iqtisadiyyatı dövründə bank və digər bank olmayan kredit institutlarının üzərinə böyük məsuliyyət düşür. Banklar iqtisadi aktivliyin hərəkətə gətirilməsində, ən sadə vətəndaşdan tutmuş iri firmalaradək bütün iqtisadi subyektlərin mənafelərinin təmin olunmasında və eyni zamanda dövlətin ali maraqlarının qorunmasında ən vacib maliyyə strukturlarındandır.

Bütün bu vəzifələr muxtar respublikamızda fəaliyyət göstərən 16 bank qurumunun qarşısında qoyulmuş və onlar öz işlərini günün tələbləri səviyyəsində qurmaq üçün çalışmışlar. Belə ki, bank və kredit təşkilatları tərəfindən ötən il ərzində 70 milyon 221 min manat kredit verilmişdir ki, bunun da 26 milyon 627 min manatını qısamüddətli, 43 milyon 594 min manatını isə uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditlərin 20 milyon 860 min manatı kənd təsərrüfatının, 14 milyon 318 min manatı sənayenin, 7 milyon 162 min manatı nəqliyyatın inkişafına, 5 milyon 611 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə və digər sahələrə yönəldilmişdir. Kredit qoyuluşu keçən ilin müvafiq dövrü ilə müqayisədə 20 milyon 499 min manat artmışdır.

***– Özəl sektora maliyyə dəstəyinin göstərilməsində bankların rolu nədən ibarətdir?***

– Bildiyimiz kimi, banklar həm yeni biznesin yaradılmasındakı maliyyə probleminin həllində, həm də müəssisələrin və sahibkarların əsas və dövriyyə fondlarının maliyyələşdirilməsində əsas vasitəçi kimi iştirak edirlər. Banklarımız tərəfindən aparılan kreditləşmə işində əsas məqsəd aqrar sektorun inkişafı, ixraca yardım və daxili bazarın müdafiəsi, kiçik və orta sahibkarlığın inkişafına nail olmaqdır. Kredit qoyuluşları, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilmişdir ki, bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması və yeni iş yerlərinin yaranmasında əhəmiyyətli rol oynamışdır. Belə ki, 2015-ci il ərzində verilmiş kreditlərin 29,7 faizi kənd təsərrüfatının inkişafına, ənənəvi istehsal və kiçik emal sahələrinin dirçəldilməsinə yönəldilmişdir. Bu kreditlər, əsasən, muxtar respublikada qəbul edilmiş dövlət proqramlarının icrasına uyğun olaraq prioritet sayılan toxum və əkin materiallarının, kiçik emal avadanlıqlarının alınmasına, digər aqrotexniki tədbirlərin aparılmasına, heyvandarlığın inkişafına verilmişdir.

***– Səbuhi müəllim, bildiyimiz kimi bankların əsas funksiyalarından biri də əhali əmanətlərinin banklara cəlb olunmasıdır. Banklara daha çox əmanətlərin cəlb edilməsi sahəsində nə kimi işlər görülür?***

– Əhali əmanətlərinin banklara cəlb olunması istiqamətində vəziyyət tam qənaətbəxş olmasa da, bu sahədə işlər davam etdirilir. Onu bildirim ki, 1 yanvar 2016-cı il tarixə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 8 milyon 572 min manat, o cümlədən xarici valyuta ilə 5 milyon 574 min manat olmuşdur. Banklara qoyulan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 800 min manat artmışdır. 1 yanvar 2015-ci il tarixlə müqayisədə xarici valyuta ilə banklara cəlb olunan əmanətlərin həcmi isə 3 milyon 835 min manat çoxdur. Banklara qoyulan əmanətlər üçün müddətindən və növündən asılı olaraq 2 faizdən 16 faizədək illik faiz ödənilir. Bundan əlavə, muxtar respublikamızda fəaliyyət göstərən banklar tərəfindən fiziki və hüquqi şəxslərə açılmış bank hesablarının işlək hesablara çevrilməsi istiqamətində də tədbirlər həyata keçirilmiş, muxtar respublika sakinlərinin adına 5 milyon 497 min ABŞ dolları məbləğində pul köçürülmüş və banklar vasitəsilə ödənilmişdir.

***– Bu gün informasiya-kommunikasiya texnologiyaları həyatımızın hər sahəsində olduğu kimi, bank-maliyyə sahəsində də tətbiq olunur. Muxtar respublikamızda elektron bank xidmətlərinin genişləndirilməsində nə kimi irəliləyişlər vardır və bu sahədə aparılan işlər özünü hansı istiqamətlərdə göstərir?***

– Dövriyyəyə lazım olan pul kütləsinin təklif olunması və pulun daha sürətli dövr etməsi üçün muxtar respublikamızda davamlı tədbirlər aparılmaqdadır. Bu məqsədlə "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"na uyğun olaraq nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, innovativ ödəniş alətlərindən və xidmətlərindən istifadənin kütləvi hal alması və elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilmişdir. 2015-ci ildə əsas ödəniş alətlərindən sayılan POS-terminalların sayı 177 ədəd artmış və 1 yanvar 2016-cı il tarixə 500-ü Naxçıvan şəhəri, 544-ü isə rayon və kənd mərkəzlərində olmaqla, 1044 ədəd təşkil etmişdir. Bankomatların sayında da bu müddət ərzində artım olmuşdur. Əgər 1 yanvar 2015-ci il tarixə bu göstərici 53-ü Naxçıvan şəhəri, 39-u kənd və rayon mərkəzlərində olmaqla, 92 ədəd idisə, 1 yanvar 2016-cı il tarixə 55-i Naxçıvan şəhəri, 43-ü kənd və rayon mərkəzlərində olmaqla, 98 ədəd təşkil etmişdir. Aparılmış tədbirlər nəticəsində nağdsız ödəniş həcmində yüksək artım müşahidə edilmişdir. Belə ki, əgər 2014-cü ilin yanvar-dekabr ayları ərzində muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcmi 12 milyon 513 min manat təşkil edirdisə, bu göstərici 2015-ci ilin yanvar-dekabr ayları ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 milyon 362 min manat artaraq 18 milyon 875 min manata çatmışdır. Gələcəkdə qeyri-dövlət sektorunda işləyənlərin əməkhaqlarının nağdsız qaydada ödənilməsinin davam etdirilməsi əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

***– Son olaraq bank işi sahəsində maarifləndirmə işi barədə məlumat verməyinizi xahiş edirik…***

– Bəli, bu istiqamətdə qarşımızda mühüm vəzifələr durur. İstər əhalinin maliyyə savadlılığının artırılmasında, istər ödəniş alətlərindən istifadə göstəricisinin yaxşılaşdırılmasında, istərsə də bank işçilərinin peşəkarlığının yüksəldilməsində çox işlər görülməlidir. Bunun üçün yuxarıda adı çəkilən plan üzrə muxtar respublikanın şəhər və rayonlarında əhali arasında maarifləndirici tədbirlər keçirilmiş, orta və ali təhsil müəssisələrində nağdsız ödəniş vərdişlərini inkişaf etdirən xüsusi məşğələlər təşkil edilmiş, ödəniş alətlərinin üstünlükləri ilə bağlı təbliğat materialları mütəmadi olaraq mətbuat vasitəsilə əhaliyə çatdırılmışdır. Bundan başqa, əhalinin nağdsız ödənişlərə marağının artırılması məqsədilə 2015-ci ilin iyun və dekabr aylarında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi ilə birgə mükafatlandırma tədbirləri keçirilmiş və bu tədbirlərdə muxtar respublika üzrə 398 nəfər şəxsə müxtəlif qiymətli hədiyyələr verilmişdir.

Qarşımızda duran digər mühüm vəzifə hamilik işi ilə bağlıdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 27 iyul 2015-ci il tarixli Sərəncamına əsasən, Naxçıvan Dövlət Texniki Kollecinin Bank işi ixtisası Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən hamiliyə götürülmüşdür. Bundan əlavə, "Naxçıvan" Universiteti və Naxçıvan Dövlət Texniki Kollecində yaradılmış "Bank işi" kabinələri müxtəlif bank vəsaitləri ilə təmin edilmişdir. Hamiliklə əlaqədar Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları tərəfindən hər iki təhsil ocağının tələbələri ilə görüşlər keçirilmiş və "Ailə büdcəsinin formalaşdırılması", "Maliyyə resurslarının idarə olunması", "Nağdsız ödənişlərin üstünlükləri və iqtisadi artımda rolu" və sair mövzularda seminar-məşğələlər təşkil edilmişdir.

Ötən dövr ərzində Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşlarının iştirakı ilə də müxtəlif mövzularda kurs və seminarlar keçirilmişdir. Ötən ilin dekabr ayında Mərkəzi Bankın və Almaniya Əmanət Banklarının Beynəlxalq Əməkdaşlıq Fondunun ekspertlərinin iştirakı ilə "Maliyyə savadlılığı" mövzusunda seminarlarda bank əməkdaşları və "Naxçıvan" Universiteti tələbələrinin iştirakı təmin edilmiş, ümumiyyətlə, bank sektorunda il ərzində 110-dan çox əməkdaş müxtəlif kurs və treninqlərdə iştirak etmişdir.

*Müsahibə üçün sağ olun.*

**Əli CABBAROV**



## Yüksək keyfiyyəti ilə seçilən "NAZ-Lifan" markalı avtomobillərə tələbat artıb

*Naxçıvan Avtomobil Zavodu 2010-cu ildən fəaliyyət göstərir. Zavodda Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb.*

İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə "NAZ-Lifan" markası ilə istehsal olunan avtomobillər ilk vaxtlar baqaj hissəsi salonda olan (xetçbek) "320" və baqaj bölməsi salondan kənarda yerləşən (sedan) "620" modellərindən ibarət idi. Bu avtomobillər ayrı-ayrı hissələrdən yığılıb sınaq meydançasına çıxarılırdı. Burada 2011-ci ildə yeni "NAZ-Lifan X-60" modelinin istehsalı üçün konveyer xəttində müəyyən dəyişikliklər aparılıb, 2012-ci ilin yanvar ayından etibarən isə "NAZ-Lifan X-60" modelinin kütləvi istehsalına başlanılıb. Həmçinin müəssisəyə təcrübə-sınaq məqsədilə 2012-ci ilin sonunda kiçik partiyada 6 nəfərlik mikroavtobus və 800 kiloqram yükgötürən avtomobillərin hissələri idxal olunub.

Artıq "NAZ-Lifan" markalı 6 nəfərlik mikroavtobusun "LF-6401" modeli, 800 kiloqram yükgötürən furqonlu avtomobilin "LF-5028" modeli və 800 kiloqram yükgötürən bortlu yük avtomobilinin "LF-1022" modeli satışa çıxarılıb. Məqsəd bazarı öyrənmək və gələcəkdə tələbat olarsa, kütləvi istehsala başlamaqdır. Bu istiqamətdə işlər uğurla davam etdirilib, 2013-cü ilin oktyabr ayında "NAZ-Lifan-620" model avtomobillər avtomatik sürət qutusu ilə təchiz edilərək satışa çıxarılıb. 2014-cü ildən isə "NAZ-Lifan" markalı avtomobillərin "330", "630" və "720" modellərinin kütləvi istehsalına başlanılıb. Hazırda istər texniki göstəriciləri, istərsə də keyfiyyət baxımından daha komfortlu "NAZ-Lifan" markalı avtomobillərin "NAZ-Lifan X-50", "NAZ-Lifan-820" modellərinin ilk nümunələrinin istehsalına başlanılıb ki, bu avtomobillər də yaxın vaxtlarda alıcılara təqdim olunacaq.

Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə 6 modeldə "NAZ-Lifan" markalı minik avtomobilləri istehsal edilir. Naxçıvan Avtomobil Zavodu Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir.

İstehsal olunan avtomobillər Nəzarət şöbəsindən keçdikdən sonra satışa buraxılır. Zavod fəaliyyətə başlayan zaman ilkin mərhələdə istehsal prosesi xarici mütəxəssislər tərəfindən aparılırdısa, hazırda bu iş yerli mütəxəssislər tərəfindən həyata keçirilir.

Hazırda istehsal olunan maşınların daha münasib qiymətə istehlakçılara təqdim olunması ilə əlaqədar layihələr hazırlanır. Müəssisədə möhürləmə, qaynaq və boyama sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Bu isə ban hissələrinin sökülü vəziyyətdə gətirilməklə müəssisədə qaynaq olunmasına imkan verəcək. Hesablamalara görə, 1 konteynerə orta hesabla 6 avtomobil banı yerləşirsə, sökülü vəziyyətdə 150-200 avtomobil banı yerləşir ki, bu da daşınma xərcinin azalması deməkdir. İstehsal olunan avtomobillərin milliləşdirilməsi planlaşdırılır. Bunun üçün avtomobil hissələrinin 51 faizinin ölkəmizdə istehsal olunması şərtdir. Bu məqsədlə avtomobilin müəyyən hissələrinin ölkəmizdə, o cümlədən Naxçıvanda istehsal edilməsi nəzərdə tutulur.

Naxçıvan Avtomobil Zavodunda istehsal olunan minik avtomobillərinin satışı işi də yüksək səviyyədə aparılır. Naxçıvan, Bakı və Xaçmaz şəhərlərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazaları yaradılıb. Yaxın vaxtlarda isə Gəncə şəhərində satış mərkəzinin, texniki xidmət şöbələrinin və avtomobillərin ehtiyat hissələrinin satışı mağazasının yaradılması nəzərdə tutulub. Bu, həmin bölgədə və ətraf rayonlarda istismar olunan "NAZ-Lifan" markalı minik avtomobillərinə Bakı şəhərinə getmədən yerində texniki xidmət göstərilməsi əlverişli şərait yaradacaq. Mühərrik və sürət qutusuna 40 min kilometr və ya 2 il zəmanət verilən avtomobillərin satışı nağd və ya sərfəli kredit şərtləri ilə aparılır.

Xaricdə istehsal olunan avtomobillərdən daha ucuz qiymətə satışa çıxarılan "NAZ-Lifan" markalı minik avtomobillərinə tələbat ildən-ilə artır. Bu isə onu göstərir ki, "NAZ-Lifan" markalı minik avtomobilləri maşın bazarında artıq özünəməxsus yerə malikdir. Sevindirici haldır ki, yerli istehsala önəm verilir, Naxçıvanda ayrı-ayrı idarə, müəssisə və təşkilatlarda "NAZ-Lifan"lardan xidməti avtomobillər kimi istifadə olunur. İstər Sovetlər Birliyi dövründə Böyük Vətən müharibəsində və Çernobıl hadisələrinin nəticələrinin aradan qaldırılmasında iştirak edən şəxslər, istərsə də Azərbaycan Vətən müharibəsi iştirakçıları dövlət vəsaiti hesabına "NAZ-Lifan-320" markalı minik avtomobilləri ilə təmin edilirlər. Hazırda muxtar respublikamızda, Bakı, Sumqayıt, Gəncə, Neftçala, Xaçmaz və Quba şəhərlərində "NAZ-Lifan" markalı minik avtomobilləri ilə taksi xidməti göstərilir.

Muxtar respublikamızda "NAZ-Lifan" markalı minik avtomobilləri ilə taksi xidməti göstərən sürücülərdən Nəbi Həsənov bizimlə söhbətində qeyd etdi ki, Naxçıvan-Culfa istiqamətində gündəlik olaraq sərnişindaşıma xidməti ilə məşğul oluram. Hər hansı bir avtomobilin keyfiyyətini yoxlamaq, ona zəmanət vermək istəyiriksə, həmin avtomobillə taksi xidməti göstərilsin. Onda həmin avtomobilin keyfiyyəti haqqında söz demək olar. Bu mənada, "NAZ-Lifan" sınaqdan çıxmış avtomobillər sırasındadır. Dörd ildir ki, bu avtomobillə taksi xidməti göstərirəm. 800 min kilometrdən artıq məsafə qət etmişəm. Heç bir problem yaranmayıb. Əvvəllər deyərdilər: xaricdə istehsal olunan avtomobillərin yağını, benzinini tök, sür. İndi bu deyim "NAZ-Lifan" markalı avtomobillərə aiddir. Keyfiyyətinə və rahatlığına söz ola bilməz.

**Kərəm HƏSƏNOV**

# Multikulturalizm müstəqil Azərbaycanın dövlət siyasətidir

## *Naxçıvan Muxtar Respublikasında da bu sahədə həyata keçirilən tədbirlər özünün yeni keyfiyyət mərhələsinə qədəm qoyub*

*Multikulturalizm hər zaman bəşəriyyətin sosial və mədəni inkişafının, intellektual və mənəvi tərəqqisinin universal bazası olub. Bu baza xalqların tarixi məsuliyyətinə, siyasətə, idarəçiliyə, mədəni mübadiləyə, qarşılıqlı zənginləşməyə böyük təsir göstərib. Hər zaman olduğu kimi, müasir dövrdə də müxtəlif mədəniyyət və sivilizasiyaların dialoqunda multikulturalizm böyük rol oynayır. Çünki bəşəriyyət fərqli mədəniyyət və dünyagörüşlərin qarşılıqlı anlaşmasını, birgə yaşayışını təmin edən başqa bir yol tapmayıb. Buna görə də eyni bir ölkədə yaşayan müxtəlif xalqların tarixi, dini, sosial, mədəni hüquqlarına humanist dünyagörüşü ortaya qoyan multikulturalizm, eyni zamanda cəmiyyətin öz daxilində ənənəvi dəyərlərin yaşadılmasına töhfəsini verən zəruri vasitədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev multikulturalizmlə bağlı fikirlərini belə ifadə edib:* ***“Multikulturalizmin dəyərləri, onun əsasları möhkəmləndirilməlidir. Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir”.***

Dünya təcrübəsi göstərir ki, multikulturalizmdən imtina etmək gələcəkdə hər bir ölkə üçün yaxşı heç nə vəd etmir. Ancaq təəssüflər olsun ki, bu gün dünyanın müxtəlif, hətta inkişaf etmiş ölkələrində belə, baş verən münaqişələrin böyük əksəriyyətinin kökündə milli, dini qarşıdurmalar ilk sırada gəlir. Bunun əsas səbəbi isə həmin ölkələrin multikulturalizmi lazımi səviyyədə qəbul etməmələri və ya başqa xalqlara məxsus dini, milli, mədəni dəyərlərə dözümsüzlük nümayiş etdirməsidir. Ancaq bütün bunların əksinə olaraq Azərbaycandakı tolerant mühitin inkişafına yönəlik aparılan dövlət siyasəti fərqli mənsubiyyəti ilə seçilən xalqların nümayəndələrinin, etnik qrupların harmonik inkişafını səciyyələndirən amillərdəndir. Bu mühit isə asanlıqla yaradılmayıb, multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış təcrübənin milli ənənələr üzərində inkişafını stimullaşdıran dövlət qayğısının və siyasətinin nəticəsində mümkün olub. İnsanlar arasında qarşılıqlı anlaşmaya, dostluq və əməkdaşlığa öz töhfəsini verən multikulturalizm Azərbaycanın zəngin mədəni və mənəvi irsinin göstəricisidir. Azərbaycan Respublikası Prezidentinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında 15 may 2014-cü il tarixli Fərmanında deyilir: *“Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Respublikasında bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir”.*

Qeyd etmək lazımdır ki, Azərbaycanın zəngin mədəniyyətə və qədim tarixə malik Naxçıvan diyarı da tarixən öz multikultural mühitinə görə seçilib. Böyük İpək Yolu üzərində yerləşən Naxçıvan tarix boyu müxtəlif sivilizasiyaların, mədəniyyətlərin qovuşduğu region kimi tanınıb. Regionun əlverişli coğrafiyaya malik olması onu fərqli maraqların toqquşduğu məkana çevirməsi ilə yanaşı, həm də bu maraqların harmonik şəkildə inkişafını təmin edib. Məsələn, bu diyara ayaq basan istənilən qonaq hər zaman böyük hörmətlə qarşılanıb, onun milli və ya dini mənsubiyyətinin göstərilən münasibətə zərrə qədər təsiri olmayıb. Əsrlərlə yaşadılmış bu ənənələr xalqımızın həyat tərzinə çevrilərək onun milli xüsusiyyətinə – mentalitetinə çevrilib. Bu xüsusiyyət, tolerantlıq özünün yüksək səviyyəsinə çataraq onu özündə əks etdirib ki, hətta düşmənlərimiz belə, qapımızı əli silahsız döyübsə, mərdlik göstərərək onu xalqımızın adına uyğun qəbul etmişik. Tolerantlığın, dözümlülüyün bu səviyyəsini gözləmək istənilən sivilizasiyalı, inkişaf etmiş bir ölkə üçün ibrətamiz nümunədir.

Xatırlatmaq lazımdır ki, ölkəmizdə multikulturalizmin dövlət səviyyəsində dəstəklənməsi, xalqımızın digər xalqlarla qarşılıqlı anlaşma, tolerant münasibətlər səviyyəsində inkişafı Heydər Əliyev siyasətinin əsas məramını təşkil edir. Bu ideoloji-siyasi kursun ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, artıq Azərbaycan bu gün bütün dünya ölkələri üçün tolerant nümunə ortaya qoyub. Naxçıvan Muxtar Respublikasında da bu sahədə həyata keçirilən tədbirlər özünün yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyaların yaradılması haqqında” 2014-cü il 20 avqust tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası, eləcə də şəhər və rayon icra hakimiyyətləri üzrə multikulturalizm və dini məsələlər üzrə komissiyalar yaradılıb. Komissiyaların yaradılmasında əsas məqsəd Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının dini qurumlarla qarşılıqlı fəaliyyətinin təşkil edilməsindən, multikulturalizm və dövlət-din münasibətlərinin daha dolğun tənzimlənməsindən ibarətdir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada milli-mənəvi dəyərlərin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlar yüksək səviyyədə qeyd edilir. Eyni zamanda muxtar respublikanın məscidlərində İslam dininin əsaslarına uyğun olaraq ibadətlər təşkil edilir, dini dəyərlərdən irəli gələn ənənələr yaşadılır, azsaylı xalqların nümayəndələrinin də mədəni irsinin qorunmasına və dini azadlığına hörmətlə yanaşılır. Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev bizimlə söhbətində bildirdi ki, hazırda muxtar respublikada 209 məscid fəaliyyət göstərir. Bunun da 72-si ölkəmiz müstəqillik qazandıqdan sonrakı dövrdə tikilib, 95 məscid və 23 pir isə yenidən qurulub və ya bərpa olunub. Komissiya tərəfindən muxtar respublikada mövcud olan məscidlərin qorunmasına, onların binalarının yaxşı saxlanılmasına daim nəzarət edilir. Həmsöhbətimiz vurğuladı ki, bu gün multikulturalizm ənənələrinin qorunmasında muxtar respublikamızda fəaliyyət göstərən din xadimlərinin də üzərinə böyük məsuliyyət düşür. Çünki din də multikultural dəyərlərin əsas tərkib hissəsi kimi aparıcı rola malikdir. Bu mənada, muxtar respublikada məscidlərin və din xadimlərinin qeydiyyatı, dini mərasimləri idarə edənlərin attestasiyadan keçirilməsi və onların xüsusi geyim forması ilə təmin olunması diqqət mərkəzində saxlanılır. Əvvəlki illər də daxil olmaqla, komissiya tərəfindən bu günədək qeydiyyatdan keçmiş 680 din xadiminin hər birinə pulsuz olaraq iki dəstdən ibarət yay və qış geyim forması verilib. Bundan əlavə, İslam dini üzrə gənc, peşəkar dini və dünyəvi biliklərə malik ixtisaslı kadrların hazırlanması diqqət mərkəzində saxlanılır. 2015-2016-cı tədris ilində “Naxçıvan” Universitetində Dinşünaslıq ixtisasının açılması bu sahəyə göstərilən diqqətin nəticəsidir.

Söhbət əsnasında öyrəndik ki, Naxçıvan Muxtar Respublikasının Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyası 2015-ci ildə fəaliyyətini dövlət-din münasibətlərinin tənzimlənməsi, radikal və dini nifrət yayan cərəyanlara qarşı müvafiq tədbirlərin həyata keçirilməsi, dini icmalar və cəmiyyətdə milli-mənəvi dəyərlərimizin təbliği ilə bağlı maarifləndirmə işlərinin təşkili istiqamətində qurub. İndi muxtar respublika ərazisində müxtəlif məzhəblərə mənsub insanların məscidlərdə birgə ibadət etmələri təmin olunur, dini icmaların iştirakı ilə sağlam dini mühitin formalaşdırılması, dindən hər hansı bir məqsədlə vasitə kimi istifadə olunmaması üçün ardıcıl tədbirlər görülür.

Bəli, bu gün muxtar respublikada multikulturalist dəyərlərin qorunmasına və təbliğinə göstərilən dövlət qayğısı aparılan siyasətin ana xəttini təşkil edir. Çünki milli və mənəvi dəyərləri inkişaf etdirmədən, digər din və mədəniyyətlərə tolerant münasibət göstərmədən ciddi uğurlara nail olmaq mümkün deyil. Nəzərə alaq ki, müasir dünyada multikulturalizm ənənələrinin inkişafı və qorunması hər kəs tərəfindən arzu olunsa da, müstəqil Azərbaycan dövləti buna sistemli və kompleks yanaşma ortaya qoyaraq özünün əsl nümunəvi modelini yaradıb və bu model dünyanın söz sahibi olan dövlətləri tərəfindən də birmənalı olaraq qəbul edilir. Buna görə də multikulturalizm inkişaf edən Azərbaycanın qazancıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2016-cı ilin ölkəmizdə “Multikulturalizm ili” elan olunması isə beynəlxalq aləmin diqqətini yenidən ölkəmizə yönəldəcək. Çalışmalıyıq ki, cari ildə Azərbaycandakı tolerant reallığın təbliğindən düzgün yararlanaq, ölkəmizin, eləcə də muxtar respublikamızın beynəlxalq aləmdə tanıdılmasına öz töhfəmizi verək.

**Səbuhi HƏSƏNOV**

# Sağlam ailə sağlam cəmiyyətin əsasıdır

***Cəmiyyətin özəyi hesab olunan sağlam ailələrin formalaşdırılması istiqamətində maarifləndirici tədbirlər davam etdirilir. “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları” mövzusunda Culfa rayonunun Kırna kəndində tədbir keçirilib. Tədbiri Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova açaraq “Ailədə qadının sağlam həyat tərzini aşılamasında əsas rolu” mövzusunda çıxış edib.***

Bildirilib ki, ailənin və qadınların sağlamlığı dünyada sosial rifahın, insan inkişafının ən vacib məqamlarından biridir. Məhz buna görə də son illər ölkəmizdə sağlam ailələrin qurulması işində bir çox tədbirlər həyata keçirilib. Belə tədbirlərdən biri də nikahdan öncə məcburi tibbi müayinədən keçmə tələbinin ailə qanunvericiliyinə daxil edilməsidir. “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli Qanununa əsasən, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi 2015-ci il iyunun 1-dən etibarən həyata keçirilir. Bunun nəticəsində irsi xəstəliklər və anadangəlmə inkişaf qüsuru ilə uşaqların doğulmasının qarşısının alınmasından onlarla ailə sığortalanıb. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi dövlətin bu sahəyə dəstəyinin göstəricisi olmaqla yanaşı, bəzi amillərin qadınların reproduktiv sağlamlığına mənfi təsiri ilə bağlı maarifləndirmə işinin aparılmasını sürətləndirib.

Qeyd olunub ki, ailə mühiti yeni nəsil üçün birinci məktəbdir. Uşaqlar xalqımızın ailə dəyərlərini, sağlam həyat tərzini ilk olaraq valideynlərindən öyrənirlər. Bu səbəbdən həm ailədə, həm də cəmiyyətdə qadının üzərinə daha çox məsuliyyət düşür. Ailə dəyərlərini qoruyub saxlayan, nəsildən-nəslə ötürən qadındır. Övladı ata-ana birgə tərbiyə etsə də, əsas təsir anadan gəlir. Ana övladına daha yaxın olur, onu daha yaxşı tanıyır. Ailə münasibətlərinin düzgün qurulması, ailə funksiyasının müəyyənləşdirilməsi, eləcə də uşaqların təlim-tərbiyəsi, onlara sağlam həyat tərzinin, qohum və erkən nikahların doğurduğu mənfi nəticələrin aşılanması, ailə qurarkən ailənin mahiyyətini anlaması və buna hazır olması ilə əlaqədar nə dərəcədə doğru istiqamətin verilməsi ailədəki qadından asılıdır.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edərək reproduktiv sağlamlıq barədə danışıb, erkən və qanqohumluğu nikahlarının fəsadları ilə bağlı slayd vasitəsi ilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Muxtar respublikamızda sağlam ekoloji mühitin yaradılması həyata keçirilən müxtəlif istiqamətli tədbirlərin tərkib hissəsinə çevrilib. Yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri, fauna və floramızın qorunmasının və zənginləşdirilməsinin təmin olunması üçün maarifləndirici tədbirlərin aparılması davamlı xarakter alıb. Aidiyyəti qurumların və əhalinin bu tədbirlərdə fəallığı muxtar respublikada sağlam ekoloji mühitin yaradılmasına stimul olub. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi öz fəaliyyət proqramını bu istiqamətdə qurub.***

# Ekoloji monitorinqlər və biotexniki tədbirlər davam etdirilir

Ekologiyanın daha da zənginləşdirilməsinə nail olmaq üçün görülən bu işlər cari ildə də davam etdirilir. Bu tədbirlərin həyata keçirilməsində məqsəd təbii kompleksləri, ərazinin biomüxtəlifliyinin qorunması, faydalı qazıntı yataqlarından səmərəli istifadənin stimullaşdırılmasıdır. Nazirlik bununla bağlı 2016-cı il üçün tərtib etdiyi iş planı əsasında müxtəlif tədbirlər həyata keçirir ki, bunlardan biri də ekoloji monitorinqlərin təşkilidir. Kompleks ekoloji monitorinqlərin keçirilməsində məqsəd ətraf mühitə atılan məişət tullantılarının qanunvericiliyin normativ-hüquqi aktları çərçivəsində idarə olunmasının vəziyyətinin qiymətləndirilməsi, içməli su mənbələrinin ekoloji sanitar vəziyyətinin araşdırılması, suların çirklənməsinin qarşısının alınmasıdır.

Yanvarın 26-da nazirliyin əməkdaşları Ordubad rayonunun ən böyük çaylarından biri olan Gilançayda su sərfiyyatının ölçülməsi istiqamətində çayın hidromühitinə təsir edən amillərin müəyyən olunması məqsədilə ərazidə səyyar laboratoriya vasitəsilə suyun fiziki-kimyəvi xassələrini və hidrogen göstəricisini, həll olunmuş oksigeni, suyun ümumi minerallığını təhlil edib. Müəyyən olunub ki, çaya heç bir halda antropogen təsir yoxdur. Həmin gün monitorinq qrupu rayonun digər yaşayış məntəqələrində – Sabirdizə, Başdizə, Qoşadizə, Kələntərdizə, Aza kəndlərində və Ordubad şəhərində də ətraf mühitin qiymətləndirilməsini həyata keçirib.



Nazirlik tərəfindən Tivi Kənd Mərkəzində keçirilən ekoloji hüquqi maarifləndirmə tədbirində bu kimi məsələlər barəsində söhbət aparılıb. Daxili İşlər Nazirliyi və Ordubad Rayon İcra Hakimiyyəti ilə birgə təşkil edilən tədbirdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Azər Məmmədov, həmin nazirliyin Ordubad rayonu üzrə müfəttişi Asif Rüstəmov, baş polis sahə inspektoru, polis baş leytenantı Vaqif Məmmədov, Tivi kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Həsənağa Hüseynov çıxış ediblər. Çıxışlarda bildirilib ki, ekologiyanın qorunması, zənginləşdirilməsi sağlam həyat tərzinin formalaşdırılmasında başlıca amildir.

Sonra Tivi kənd tam orta məktəbində “Naxçıvanın zəngin təbiəti” adlı sərgi təşkil olunub. “Ekoloji siyasət”, “Fauna və flora”, “Təbiət aləmi” adlı başlıqlardan ibarət olan sərgiyə baxışdan sonra məktəblilər üçün videoçarx nümayiş etdirilib.

Sonra Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının Tiviçay vadisində heyvanat aləminin qış mövsümündə qidalanmasını təmin etmək məqsədilə biotexniki tədbir keçirilib.

**Muxtar MƏMMƏDOV**

*Kütləvi yaşayış məskənləri kimi tanınan şəhərlər tarixən inkişaf etdikcə özündə bir çox ictimai mədəniyyət nümunələrini formalaşdırıb. Belə nümunələrə şəhərdə hərəkət etmək, dincəlmək, kütləvi yerlərdə davranış qaydalarına riayət etmək kimi xeyli misallar gətirmək olar. Müasir şəhər həyatında əsas faktorlardan biri də piyada və sürücü münasibətlərini özündə əks etdirən yol mədəniyyətidir. Bu mədəniyyətin formalaşması ötən əsrdən başlayıb və adətən, elmi-texniki tərəqqinin nailiyyətlərindən sayılan müxtəlif nəqliyyat vasitələrinin həcminin artması zərurətindən yaranıb. Ancaq məsələ burasındadır ki, üstündən bir neçə onilliklər keçsə də, piyada və sürücü mədəniyyəti hər ölkədə eyni səviyyədə inkişaf etməyib. Bunun bir çox səbəbləri olsa da, gəlinən nəticə budur ki, yol mədəniyyətinin səviyyəsi artdıqca sürücü və piyadaların təhlükəsizliyi də o səviyyədə qorunmuş olub.*

# Yol mədəniyyətimiz

## *Bu mədəniyyəti nümayiş etdirməklə təhlükəsizliyimizi də qorumuş olarıq*

***(Naxçıvan şəhərindən reportaj)***





Son illərdə muxtar respublikamızda yol-nəqliyyat infrastrukturu sahəsində mühüm işlər görülüb. Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində muxtar respublikada avtomobil yollarının böyük əksəriyyəti yenidən qurularaq genişləndirilib, işıqlandırma sistemi quraşdırılıb, hərəkət qaydalarını tənzimləyən müxtəlif nişanlar qoyulub. Görülən işlər əhalinin rahat hərəkət imkanlarını təmin etsə də, bu, heç də müxtəlif təhlükələrdən sığortalanmağımız anlamına gəlmir. Eyni zamanda qeyd etməliyik ki, əhalinin sosial rifah halının yüksəlməsi son illərdə şəxsi minik avtomobillərinin sayının artmasında da özünü göstərib. Bu da, təbii ki, avtomobil yollarında hərəkətin intensivliyinə təsir edir, piyada və sürücülərin məsuliyyətini ikiqat artırır. Və hər birimiz istər-istəməz bu məsuliyyətin iştirakçısına çevrilirik. Bunu belə başa düşmək lazımdır ki, hər gün biz olduğumuz yerdən küçə və yollara çıxarkən hərəkət iştirakçısına çevrilirik: avtomobili idarə edərkən sürücü, avtomobildə hərəkət edərkən sərnişin, küçə və yollardan keçərkən isə piyada qismində oluruq. Yəni tutduğumuz vəzifədən, mövqedən, cinsimizdən və yaşımızdan asılı olmayaraq, hər birimiz yol hərəkəti haqqında qanunları bilmək məcburiyyətindəyik. Sürücülər sürücü kimi, piyadalar isə ən azından piyada kimi necə hərəkət etmək lazım olduğunu bilməlidirlər. Bəs bu gün muxtar respublikamızın paytaxt şəhəri olan Naxçıvan şəhərində sürücü-piyada münasibətləri necə tənzimlənir və yaxud bu sahədə yuxarıda qeyd etdiyimiz kimi bir mədəniyyət nümunəsi göstərə bilirikmi? Düşünürəm ki, bu istiqamətdə apardığımız müşahidələr sualımıza cavab tapmaqda bizə kömək edəcək.

Hər şeydən əvvəl qeyd etməliyik ki, Naxçıvan şəhərində hərəkətin təhlükəsizliyini təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Yol Polisi İdarəsinin, Naxçıvan Şəhər Polis İdarəsinin yol-patrul xidmətinin əməkdaşları onlar üçün təyin olunmuş müxtəlif yerlərdə xidmət aparırlar. Xüsusilə şəhərimizin müxtəlif hissələrindəki piyada keçidləri yaxınlığında yol polislərini günün istənilən saatında görmək mümkündür. Biz də müşahidələrimizə piyada keçidlərindən başladıq. Həm də ən çox piyada axını yaradan müxtəlif obyektlərin (məktəb, xəstəxana, uşaq bağçası və sair) yaxınlığındakı piyada keçidlərini seçdik və bu keçidlərdən istifadə edən və etməyən piyadalardan bir neçəsi ilə həmsöhbət olduq.

Naxçıvan şəhər sakini Cavid Dünyamalıyevlə tanışlığımız müsahibimizin "İstiqlal" küçəsindəki piyada zolağı ilə qarşı tərəfə keçidindən sonra baş tutur. Bildirir ki, hər gün işə gedib-gələrkən bu piyada keçidindən istifadə edir: "Piyada keçidlərinin qoyulması hər birimizin təhlükəsizliyinə xidmət edir. Düzünü desəm, əvvəllər yoldan keçərkən piyada keçidlərinə fikir vermirdim. Dünən qarşı tərəfə keçmək istəyərkən yol polisi əməkdaşı nəzakətlə, əgər siz buradan keçməsəniz, əli ilə arxadan gələn məktəbli uşaqları göstərib, onlar da buradan keçməyəcəklər, – dedi. Həmin zaman geriyə dönərək piyada keçidinin üzəri ilə addımlamağa başladım və yolu keçəndən sonra fikirləşdim ki, həqiqətən, biz çox zaman öz hərəkətlərimizlə uşaqlarımıza düzgün nümunə göstərə bilmirik. Bundan sonra həmişə bu qaydalara diqqət etməyə çalışacağam".

Şəhər sakini Ziyəddin Quliyev də mütəmadi olaraq piyada keçidlərindən istifadə etdiyini deyir: "Piyada keçidlərindən istifadə etmək hər birimizin təhlükəsizliyi baxımından vacibdir. Bu həm də ona görə lazımdır ki, piyada keçidlərindən keçərkən avtomobillər piyadaları məcburən gözləyirlər. Buna görə də qarşı tərəfə tez keçmək olur. Əgər başqa yerdən keçsəniz, yoldan keçən avtomobilin sizi gözləyəcəyini təxmin edə bilmirsiniz, məcbur olub sağdan və soldan keçən avtomobilləri gözləyirsiniz ki, bu da sizin üçün əlavə vaxt itkisidir, bəzən isə bu, qəza vəziyyəti yaradır".

"Niyə piyada keçidindən istifadə etmirsiniz?" sualını isə avtomobillərin arasından sürətli addımlarla yolu keçərək piyada səkisinə özünü çatdıran 45-50 yaşlarında bir qadına ünvanlayırıq. Cavab vermədiyindən sualı ikinci dəfə səsləndirməli oluruq. Qadın "vaxtım yoxdur, işə tələsirəm", – deyib bizdən uzaqlaşır.

Piyada keçidindən istifadə etməyən digər şəhər sakini isə adının Ayxan olduğunu deyir. Tələbə olduğunu söyləyən Ayxandan niyə yaxınlıqdakı keçiddən istifadə etmədiyini soruşduğumuzda "eh müəllim, fərqi nədir, bir də piyada keçidi axtarmalıyam bu qədər yolda? Onsuz da maşınlar saxlayıb piyadalara yol verir", – deyə sualımızı cavablandırır.

Növbəti yaxınlaşdığımız piyada isə yolun piyadalar üçün nəzərdə tutulmayan hissəsindən mobil telefonla kiminləsə uzun-uzadı danışaraq keçən 18-20 yaşlarında tələbə xanımdır. Hər halda yaxınlıqdakı ali təhsil müəssisəsinə doğru getdiyindən belə zənn edirik. Ondan niyə piyada keçidindən istifadə etmədiyini soruşduqda, bizə yox, telefondakı şəxsə cavab verərək uzaqlaşır. Qərəz, müşahidələrimizi şəhərdəki müxtəlif piyada keçidləri yaxınlığında aparsaq da, mənzərə dəyişmir: piyada keçidlərindən istifadə edənlər də var, bu keçidlərə məhəl qoymayanlar da. Maraqlı burasıdır ki, adını çəkmədiyimiz digər piyadalarla da apardığımız söhbətlərdə hər kəs sürücülərdən razılığını bildirdi, yol keçərkən onları gözlədiklərini, yol verdiklərini qeyd etdi. Təbii ki, narazı olanlar da tapılır, ancaq onların sayı o qədər də çox olmur. Söhbət etdiyimiz sürücülərin əksəriyyəti isə piyadaların yol hərəkəti qaydalarına çox zaman məhəl qoymadıqlarını bildirdilər. Məsələn, Eldar adlı taksi sürücüsü deyir ki, məşğul olduğu peşə onu sükan arxasında daim diqqətli olmağa məcbur edir. Amma bununla belə, gün ərzində yol hərəkəti qaydalarını pozan, işıqfora məhəl qoymayan, piyada keçidlərindən istifadə etməyən, hətta avtomobillərin hansı istiqamətdən gəldiyinə diqqət etməyən çox sayda piyadalarla qarşılaşdığını söyləyir. "Ən çox hansı yaş qrupundan olan piyadalar qayda pozuntularına yol verirlər?" sualıma taksi sürücüsü cavab verir ki, əslində, bunu bütün yaş qruplarından olan piyadalar haqqında demək olar, ancaq mənə görə belə piyadalar daha çox qadınlar olurlar.

Həmsöhbət olduğumuz yol-patrul xidmətinin əməkdaşları da bildirdilər ki, ötən dövrlərlə müqayisədə piyadaların yol hərəkəti qaydalarına riayət etməsində müsbət irəliləyişlər var. Amma bu qaydaları pozan, piyada keçidlərindən istifadə etməyənlər də az deyil. Qanun keşikçiləri onu da qeyd etdilər ki, xidmət zamanı qaydalara tabe olmayan piyadalarla daim maarifləndirici söhbətlər aparır, piyada keçidlərindən, eləcə də şəhərdəki yeraltı və yerüstü keçidlərdən istifadənin piyadaların öz təhlükəsizliyi ilə birbaşa bağlı olduğunu onlara çatdırmağa çalışırıq.

Müşahidələrimiz zamanı gəldiyimiz nəticə isə bunu deməyə imkan verir ki, şəhərimizdəki sürücü-piyada münasibətləri gərginliklə müşahidə edilməsə də, piyadalar öz vəzifələrinə hələ də biganə yanaşırlar. Halbuki "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 40-cı maddəsində piyadaların da vəzifələri nəzərdə tutulub. Qanunda yolda piyadanın istiqamətinin tənzimlənməsindən tutmuş hər hansı pozuntuya görə tətbiq edilən cəriməyədək hər şey öz əksini tapıb. Ancaq təəssüflər olsun ki, hələ də piyadalarımızın əksəriyyəti yol hərəkəti qaydalarının pozulmasında yalnız sürücüləri günahkar bilirlər. Məsələnin digər tərəfi ondan ibarətdir ki, bəzilərimiz piyada kimi öz vəzifəmizi dərk etsək də, qanunlara əməl etməyi, necə deyərlər, sevmirik. Bəzən bir çox məsələlərdə Avropa ölkələrini nümunə gətirib onlardakı müxtəlif mədəniyyət nümunələrindən heyranlıqla danışırıq. Lakin unuduruq ki, Azərbaycan sahib olduğu mədəniyyətlə dünyada tanınan ölkədir. Onda nəyə görə biz yol mədəniyyətimizi nümayiş etdirməyək?

*Deyirlər ki, yol mədəniyyətdir. Onda yola çıxarkən, gəlin mədəni olmağı da unutmayaq.*

**✍ Səbuhi HƏSƏNOV**

*Unutsaq, unudularıq*

# Sadiq bəy Ordubadi və Hatəm bəy Ordubadi kimdir?

***"Azərbaycanın incisi" Ordubad torpağı tarixən öz ziyalıları ilə şöhrət qazanmışdır. Hələ orta əsrlərdə bu diyarda doğulub boya-başa çatan, öz bilik və bacarıqları ilə dünya sivilizasiyasına töhfələr verən onlarla görkəmli şeir, sənət adamı, ictimai xadimlər olmuşdur ki, bu gün də onların adlarını iftixarla çəkmək olar.***

"Naxçıvan Ensiklopediyası", "Naxçıvan tarixi", "Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar", "Qədim Şərq ədəbiyyatı tarixi", "Nuhçıxandan Naxçıvana" kimi kitablarda belə şəxsiyyətlərin adlarına tez-tez rast gəlirik. Bu mənbələrə nəzər yetirdik və öyrəndiklərimizi oxucularımızla bölüşmək istədik. Gəlin Naxçıvanımızın fəxri olan belə ziyalıları tanımağa davam edək.

Sadiq bəy Ordubadi tanınmış simalardan olmuşdur. Onun həyatı haqqında məlumat çox azdır. Mənbələrdən oxuyuruq ki, o, 1562-ci ildə Hindistana getmiş, biliyi və istedadı, şirin söhbətləri, gözəl rəftarı, xoş xisləti və təmiz əxlaqı ilə şöhrət qazanmışdır. Sadiq bəy, əsasən, fars dilində yazmış, rübai janrına daha çox meyil göstərmişdir. Həmçinin bu janrda aşiqanə və fəlsəfi məzmunlu əsərlərlə birlikdə Cəlaləddin Dəvvani və Əbdürrəhman Caminin rübailərinə cavab və nəzirələr yazmış, onların şeirlərini şərh etmişdir. Sadıq bəy Avşar (Sadiqi) "Məcməül-xəvas" təzkirəsində onun həcv deməkdə də mahir olduğunu qeyd etmişdir. Bəzi mənbələrə görə, ("Həft iqlim" təzkirəsi və sair) Sultan Əkbər Cəlaləddin şah (1556-1605) Dəkkəni aldıqdan sonra burada dövlət qulluğunda çalışmışdır. Sadiq bəy Ordubadi Qəribquş qəsəbəsində öldürülmüşdür.

Hatəm bəy Ordubadi Səfəvilər dövlətinin ictimai-iqtisadi həyatında mühüm rol oynamış, nüfuzlu dövlət xadimi kimi tanınmışdır. Naxçıvanın dilbər guşələrindən biri olan Ordubadda gözlərini dünyaya açan Hatəm bəy Məlik Bəhrambəy oğlu Ordubadi dövlət xadimi olmuşdur. O, dahi Nəsirəddin Tusinin nəslindəndir. Onun atası Məlik Bəhrambəy Ordubadın kələntəri olmuşdur. Atasının ölümündən sonra Hatəm bəy Ordubadın kələntəri vəzifəsinə təyin olunmuş, sonralar Xoy, Yəzd və Şiraz hakimlərinin yanında xidmət etmişdir. Hatəm bəy Ordubadi bir müddət Xoy hakimi Dolubudaq Rumlunun, sonra isə Kirman hakimi Vəli xan Əfşar və oğlu Beyktaşın vəziri olmuşdur. Azərbaycan, ərəb və fars dillərini mükəmməl bilirdi. Hatəm bəyin dərin biliyi onun üçün daim parlaq imkanlar açmış, I Şah Abbasın (1587-1629) hakimiyyətinin ilk illərində Səfəvilər sarayında maliyyə işlərinə nəzarət etmiş, 1592-ci ildə vəzir (etimadüd-dövlə) təyin olunmuş, Səfəvilər dövlətinin siyasi və iqtisadi həyatında mühüm rol oynamışdır. I Şah Abbas 1606-cı ildə Ordubada ziyarətindən sonra şəhəri Hatəm bəy Ordubadiyə bağışlamışdı. O, şəhərdə geniş abadlıq işləri aparmış, ictimai binalar tikdirmişdir. Elm və mədəniyyət xadimlərinə himayəçilik etmişdir. Hatəm bəy Ordubadi bədii yaradıcılıqla da məşğul olmuş, "Safı" təxəllüsü ilə türk (Azərbaycan) və fars dillərində şeirlər yazmışdır. Qəflətən vəfat etmiş Hatəm bəy Ordubadinin cənazəsi Təbrizə, sonra isə Məşhədə aparılmış, İmam Rza məqbərəsinin aşağı hissəsində dəfn olunmuşdur.

Adlarını tarixə qızıl hərflərlə həkk etmiş görkəmli şəxsiyyətlərimizi oxuculara qismən tanıtmaqla arzu edirik ki, tədqiqatçılarımız Naxçıvanın belə şəxsiyyətləri haqqında bizə daha dərin və geniş məlumatlar versinlər.

**✍ Nərgiz İSMAYILOVA**

# Mövsümlə əlaqədar aktivləşən kəskin respirator virus xəstəliklərinə bənzər əlamətlər olan hallarda görülməli tədbirlər:

Əgər sizdə hərarət, öskürək, boğaz ağrısı və ümumi halsızlıq varsa, profilaktik tədbir kimi mütləq evdə qalın;

işlədiyiniz yerə və ya təhsil müəssisəsinə getməkdən, habelə əhali ilə təmasdan çəkinin;

yataq rejiminə kifayət qədər əməl edin və otağın havasını mütəmadi dəyişin;

çoxlu miqdarda maye qəbul edin – həmərsin dəmləməsi, zoğal, moruq mürəbbəsi və limonlu isti çay xeyirlidir;

mütəmadi olaraq öskürdükdə və asqırdıqda ağzınızı və burnunuzu tənziflə örtün, silin və sonra bu tənzifi heç bir yerə qoymadan məişət tullantıları qutusuna atın;

əllərinizi sabunla tez-tez yuyun. Xəstəyə məxsus qabları alma sirkəsi qatılmış məhlul ilə yaxalayın;

xəstəliyiniz haqda ailə üzvlərinizə və sahə həkiminizə məlumat verin;

xəstəyə qulluq edən şəxsin də tənzif maskalardan istifadə etməsi və əllərini tez- tez sabunla yuması vacibdir. Həmçinin əllərin spirt, kolonya və alma sirkəsi qatılmış məhlul ilə dezinfeksiya edilməsi məsləhətdir;

xəstəliyin müalicəsində qripə qarşı effektiv olan preparatlardan istifadə edin;

vaxtında müalicəyə başlayanda xəstəliyin fəsadlarının qarşısını almaq mümkündür.

***Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi***

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 74